# Xəzərdən "qara qızıl" çıxaran qurğular sırasına daha bir platforma qoşulacaq

## Jurnalistlər də ACE ilə tanış oldular



Azərbaycanın neft mövzusunda yazan bir qrup jurnalisti yeni ACE ("Azəri Mərkəzi Şərqi") platformasının üst modullarının inşa edildiyi Bayıl tikinti-quraşdırma sahəsində olmuşdur. Səfər ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin operatoru olan bp şirkəti tərəfindən təşkil edilmişdir.

Məlum olduğu kimi, bir həftə əvvəl Prezident İlham Əliyev burada olmuş və üst modulların dənizə rəmzi yola salınmasında iştirak edərək yeni qurğuya xeyir-dua vermişdir. Qeyd edək ki, dövlətimizin başçısı keçən ilin dekabr ayında Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilən dayaq blokunun da rəmzi yola salınmasında iştirak etmişdir. Bu da "Azəri-Çiraq-Günəşli" (AÇG) sahəsində quraşdırılacaq yeni platformanın önəminə bir daha diqqət çəkir.

Sözügedən qurğu eyniadlı layihə çərçivəsində inşa edilib və fəaliyyəti boyu 300 milyon barel neft hasil etmək gücündə layihələndirilib. ACE layihəsi isə AÇG yataqlarının tammiqyaslı işlənməsi üzrə "Hasilatın Pay Bölgüsü Sazişi"nin əsrin ortasına qədər uzadılması çərçivəsində həyata keçirilir.

Tikinti sahəsində media nümayəndələrinə bütün bunlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, layihə üzrə bir neçə istiqamətdə iş aparılıb. O cümlədən dənizdə və Səngəçal terminalında ACE-nin ilk neftini sahilə gətirmək və qəbul etmək üçün müvafiq işlər artıq sona çatmaqdadır.

Bu ilin mart ayında Xəzərə yola salınmış dayaq bloku hazırda üst modulların yolunu gözləyir. Bu modullar da öz daimi yerində quraşdırılandan sonra ilk quyunun qazılmasına başlanılacaq. ACE-dən ilk hasilatın isə gələn ilin əvvəllərində alınacağı gözlənilir.

"Azərbaycan"ın yaxın nömrələrinin birində ACE layihəsi və platforması haqda ətraflı bəhs oluanacaq.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 11 aprel.- S.9.